# “Ordumuzun şücaətinə, xalqımızın birliyinə inanırıq”

## “İmkan verməməliyik ki, ermənilər öz cinayətlərini ört-basdır etsinlər”




**Azərbaycanın erməni işğalçılarına qarşı haqq savaşına dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımız da dəstək verir. Aksiyalar keçirilir, müxtəlif istiqamətdə təbliğat işləri aparırlar. Onlar ölkəmizlə bağlı doğru fikrin formalaşması üçün mücadilə aparırlar.**

Azərbaycanla bağlı həqiqətlərin bu gün dünyada daha aydın eşidilməsi və diqqət çəkməsində onların böyük əməyi var. ABŞ, Kanada, Avropa, Asiya ölkələrinin əksəriyyətində yaşayan azərbaycanlılar Qarabağ uğrunda haqq savaşımızı yaxından dəstəkləyirlər. Onlar ordumuza, şəhid ailələrinə, müharibədən zərər çəkən mülki şəxslərə maddi dəstək göstərir, ürəklərinin Vətəndə olduğunu bildirirlər.

### QARABAĞ MÖVZUSU KANADA SENATINDA

**Kanadanın Alberta əyalətinin Kalqari şəhərində yaşayan həmyerlimiz Famil Qarayev** ermənilərin torpaqlarımızı işğal etməsinə, Bərdədə, Gəncədə mülki şəxslərə qarşı törətdikləri terror aktlarına qarşı, eyni zamanda xalqımıza və ordumuza dəstək məqsədilə keçirilən ”Qarabağ Azərbaycandır” adlı aksiyada ailəsi ilə birlikdə fəal iştirak edib: ”Aksiyaya təxminən 250 nəfər qatıldı. Burada yaşayan azərbaycanlıların əksəriyyəti aksiyada iştirak etdi. Həmçinin ordumuza, müharibədən zərər çəkənlərə maddi dəstək üçün ianə topladıq və Azərbaycana göndərildi”. F.Qarayev deyir ki, mübarizəni davam etdirərək Kalqaridəki azərbaycanlılarla Kanadanın baş naziri Justin Trudeauya, Alberta əyalətinin baş naziri Jason Kenneyə, Kalqari şəhərinin meri Naheed Nenshiyə, Vankuver şəhərinin meri Kennedy Stevarta, Kanada parlamentinin bütün üzvlərinə, Ontario əyaləti parlamentinin bütün üzvlərinə Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini və Kanadada siyasətçilər və media orqanları arasında Azərbaycana qarşı qərəzli mövqe barədə narahatlıqlarını əks etdirən məktublar göndəriblər: ”Həmçinin Kanadanın bütün ingilisdilli qəzetlərinin hər birinə ayrılıqda Qarabağ mövzusunda obyektiv xəbər yayımlamaları xahişi ilə email göndərdim. Təəssüflər olsun ki, enerjimizin, vaxtımızın əksəriyyəti ermənilərin xeyrinə yayımlanan xəbərləri təkzib etməyə sərf olunur. Ona görə, media mənsublarını, Qarabağ mövzusunda xəbər yayımlanmadan, onları obyektiv və Azərbaycanın mövqeyini izah edən mənbələrə yönəltməkdə fayda var. Söhbət 20 qəzetin 100-dən artıq baş redaktor, redaktor köməkçisi və jurnalistlərdən ibarət komandalarından gedir. Mənə maraqlı idi: görəsən bu qəzetlərdə xəbərlərin obyektivliyinə mənfi təsir göstərə biləcək erməni mənşəli jurnalistlər varmı? Araşdırmamın cavabı ”yox” oldu ki, bu da sevindirici haldır. Yəni dərdimizi vaxtında, uyğun şəkildə paylaşsaq, inşallah bir nəticəsi olar”. F.Qarayev hesab edir ki, cəbhədə ordumuz davamlı hücum vəziyyətində ikən bizim müdafiə əhvalında sosial mediada mübarizəmizi davam etdirməyimiz uyğun olmaz: ”Biz də artıq hücuma keçib müxtəlif media orqanlarının diqqətini özümüzə cəlb etməliyik. Bu əməldə qeyri-adi bir şey yoxdur, hər kəs yaşadığı ölkədə eyni şeyi edib Azərbaycanla bağlı doğru fikrin formalaşmasında asan şəkildə rol oynaya bilər. Bunu öncə özüm etdim ki, başqaları ilə də paylaşa bilim. Nəticənin olub-olmayacağını Allah bilir. Ancaq mən vicdan rahatlığı ilə ”vətəndaşlıq borcumu yerinə yetirirəm” deməyə davam edə bilərəm. Həmçinin mənim təşəbbüsümlə senatorlara Xocalı ilə bağlı kitab göndərməyə başlamışıq. Mən 5 senatora, başqa yoldaşlar da digər senatorlara kitab göndərməyə razı olublar. Hələ ki, 20 senatora kitab göndərməyə nail olmuşuq. Hesab edirəm ki, bunun da faydası olar”. Soydaşımız qeyd edir ki, indi əsas işləri yerli media, senatorlar, parlament üzvləri, siyasətçilərlə təmas yaratmaqdır: ”Bu həftə Senatda Qarabağın müstəqilliyi ilə bağlı mövzu qaldırılacaqdı. Yunan senatorlardan biri bu mövzunu qaldırmaq istəyirdi. Biz də bu mövzu ilə bağlı senatorlara məktublar yazdıq. İndi də bu mövzu ilə bağlı müzakirələr davam edir. Bu gün xəbər aldıq ki, hansısa senator o mövzuya etiraz edib. Ola bilsin, mövzu daha Senatın müzakirəsinə çıxarılmasın. Amma yenə də aktual problemdir. Təəssüf ki, istər Amerikada, istərsə də Kanadada Azərbaycana qaşı mövqe mənfi, ermənilərə qarşı müsbətdir. Çünki onlar 30 ildir ki, bu təbliğat işlərinə başlayıblar. Biz isə yeni-yeni başlamışıq. Bununla belə, ümidimizi itirmirik. Hazırda burada yaşayan azərbaycanlıların əhval-ruhiyyəsi yüksəkdir. Ordumuzun şücaətinə, xalqımızın birliyinə inanırıq. Hamımız qələbə gözləyirik və ”Qarabağ Azərbaycandır!” deyirik.

### İCMA OLARAQ BİRLƏŞMƏYƏ BAŞLAMIŞIQ

**Amerikada yaşayan fəal Elman Kərimov** hesab edir ki, ayrı-ayrı ölkələrdə erməni təcavüzkarlığı əleyhinə keçirilən aksiyaların birbaşa olmasa da, dolayısı ilə haqq savaşımızın dünyaya tanıdılmasına təsiri var. Belə ki, aksiyalar, ilk növbədə ordumuzun ərazi bütövlüyümüz uğrunda haqq savaşında olduğunu göstərir: ”Aksiyalar erməni diasporunun də boyunlarına götürüblər. Eyni zamanda, xanımlarımız da aktivdirlər. Bu gün kişili-qadınlı, uşaqlı-böyüklü hamı bir əsgərdir. Mən beş ildir Amerikada yaşayıram. İnsanların bir yumruq şəklində, bir icmada belə sıx birləşdiyini ilk dəfədir görürəm. Bu, təbii ki, sevindirici haldır. Azərbaycan icması olaraq başa düşürük ki daha çox işlər görməliyik. Ordumuzun haqq işini, mülki şəxslərin terrora məruz qalmasını, ermənilərin törətdikləri cinayətləri dünyaya çatdırmalıyıq. İmkan verməməliyik ki, ermənilər öz cinayətlərini ört-basdır etsinlər. Bu, təkcə Amerikada yaşayan Azərbaycan icmasının deyil, bütün dünyada yaşayan Azərbaycan icmalarının vəzifəsidir. Artıq bunu etməyə başlamışıq”. E.Kərimov deyir ki, ordumuzun şücaəti, xalqımızın haqq savaşı millətimizə olan münasibəti də dəyişib: ”Mənim üçün hazırda fərqli bir aura yaranıb. Məsələn, mağazaya daxil olduğum zaman köhnə postsovet ölkələrindən olan vətəndaşlar və ya Qarabağ haqqında məlumatı olan, ölkəmizi tanıyan insanların azərbaycanlı olduğumuzu bilincə ”siz öz torpaqlarınızı heç bir dövlətdən qorxmadan azad etməyə başlayıbsınız” deyərək, bizə fəxrlə baxırlar. Onların bizə dəstək verməsi adamda qürur doğurur. Bu savaş azərbaycanlıların imicini artırır. Əsgərlərimizin qazandığı uğur bizə qarşı münasibətləri dəyişdirib. Artıq bizə qarşı necə fərqli yanaşma olduğunu görmək mümkündür”. E.Kərimov okeanın o tayında yaşayan azərbaycanlıların ordumuza, Vətən müharibəsində zərər çəkən ailələrə maddi dəstək göstərdiklərini də bildirir: ”Biz Vətəndən uzaqlarda olsaq da, ürəyimiz Azərbaycandadır. Qəlbimiz qələbə eşqi ilə döyünür. Bu günlərdə bir aksiya keçirdik. Belə ki, azərbaycanlı qadınlar hazırladıqları yeməkləri satışa çıxardılar və əldə edilən vəsaiti müharibədə şəhid olanların, zərər çəkənlərin ailələrinə ianə edəcəyik. Bizim icma ordumuza, zərər çəkənlərə, şəhid ailələrinə maddi dəstək göstərir. Bu aksiya çox uğurla başa çatdı. Hamının qələbəyə ümidi böyük idi. Mən hamının gözündə qələbə ümidini görürdüm və hamı zəfər üçün çalışırdı. Heç kimdə tərəddüd görmədim. Bu, çox böyük iş idi. Özümün də düşmən üzərində qələbə, torpaqlarımızın işğaldan azad olunması ilə bağlı böyük ümidlərim var. Biz əminik ki, Vətən müharibəsi tezliklə Azərbaycan ordusunun şanlı qələbəsi ilə başa çatacaq və haqq öz yerini tapacaq. Bu gün üçüncü dövlətlərin müdaxiləsi məsələsini erməni mətbuatı çox şişirdir. İnanmıram ki, hansısa ağıllı dövlət başçısı şəri dəstəkləsin. Dünya arenasında bugünkü mənzərə tam dolğunluğu əks etdirir: Qarabağ Azərbaycanındır! Rusiya prezidentinin dilindən də eşitmişik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bu, bizim haqq savaşında olduğumuzu bir daha göstərir. Azərbaycan icması da bu işə bacardığı qədər dəstək verir. Biz haqq işimiz, torpaqlarımızın bütövlüyü üçün mübarizə aparırıq. Biz qalib gələcəyik, buna heç bir şübhəmiz yoxdur. Tanrı ordumuzu qorusun!”





**Tərənə Məhərrəmova**